# Regionun gündəliyi Azərbaycan tərəfindən müəyyənləşdirilir

## Sülhə gedən addımlardan ən vacibi delimitasiya və demarkasiya prosesinin tamamlanmasıdır

**"Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı ilkin addımların atılması regionda dayanıqlı sülhə nail olunmasının uzun vaxt almayacağına işarədir. Nəzərə almaq lazımdır ki, 30 il müharibə vəziyyətində yaşadığımız Ermənistanla bir neçə görüşdən sonra sərhədlərin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri komissiyalarının ciddi nəticələr əldə etməsi mühüm əhəmiyyətə malikdir. Razılaşmadan çox qısa müddət sonra Qazaxın 4 kəndində sərhəd dirəklərinin quraşdırılması yaxın gələcəkdə iki ölkə arasında etimad mühitinin formalaşacağı və Cənubi Qafqazda sülhün bərqərar olacağı barədə nikbin proqnozlar verir".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva söyləyib. Deputat bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsindən dərhal sonra sülhyaratma prosesinə başlayıb və bu istiqamətdə lazım olan bütün addımları atıb: "Sülh müqaviləsinin imzalanması üçün layihə də Azərbaycan tərəfindən hazırlanıb və Ermənistana təqdim edilib. Mədəniyyətlərarası Dialoq Forumunda Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan sülhü vasitəçisiz də bərqərar edə bilər. Bu prosesə Azərbaycanda və regionda iqtisadi, siyasi, biznes və maliyyə maraqları olan tərəflərin qoşulmasına imkan verilməyəcək. Təkbaşına müharibə aparıb qalib gəldiyimiz kimi, regionda və iki ölkə arasında sülhün bərqərar olunması üçün lazım olan addımları da vasitəçilərsiz atacağıq. Çünki görünən odur ki, vasitəçilər bu prosesi daha da alovlandırmağa, münaqişəni körükləməyə çalışırlar. Məhz bunun nəticəsidir ki, biz ikili standartlarla, ölkəmizə qarşı sərgilənən riyakar davranışlarla üz-üzəyik".



Jalə Əliyeva deyib ki, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi birmənalı olaraq vacib məsələdir. Bu, strateji təhlükəsizlik, xalqların rahat və əmin-amanlıq şəraitində yaşaması, eləcə də tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyətə malikdir. Ona görə də məsələnin qısa müddətdə öz müsbət həllini tapması Azərbaycanın maraqlarındadır.

"Azərbaycanla Ermənistan sərhədlərinin müəyyənləşdirilməsi tək Bakı ilə İrəvanın deyil, regionun digər ölkələrinin də maraqları çərçivəsində qiymətləndirilməlidir. Cənubi Qafqaz regionu ilə birbaşa və ya dolayısı bağlantısı olan bütün tərəflər anlamalıdırlar ki, sülhə gedən addımlardan biri də məhz delimitasiya və demarkasiya prosesinin tamamlanmasıdır. Ona görə də Ermənistanı bu məsələdə konstruktiv mövqe sərgiləməyə dəvət etməlidirlər", - deyə müsahibimiz əlavə edib.

Deputat yekunda regionda sülhün bərpa olunmasında maraqlı olmayan qlobal subyektlər barədə də fikir bildirib. Deyib ki, Azərbaycan və Ermənistan arasında müvafiq razılaşmanın imzalanmasından və sərhəd dirəklərinin quraşdırılmasından sonra həmin qüvvələrin səssizliyə qapılmasının səbəbləri məlumdur. Artıq beynəlxalq ictimaiyyət regionun gündəliyinin Azərbaycan tərəfindən diktə olunduğunu qəbul edir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 5 may, № 92.- S.5.